## ***HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ***

| | |
|---|---|
| ***1930, 8 dekabr*** | *Tofiq Əhmədağa oğlu Bakıxanov Bakıda görkəmli tarzən, Azərbaycanın xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açıb.* |
| ***1938–1948*** | *Onillik musiqi təhsilini Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası (indiki Bakı Musiqi Akademiyası) nəzdindəki onillik musiqi məktəbində (indiki Bülbül adına orta ixtisas musiqi məktəbi) skripka aləti üzrə respublikanın Əməkdar müəllimi M. İ. Simberovdan almışdır.* |
| ***1941*** | *T. Bakıxanov ilk dəfə Ü.Hacıbəyovun qarşısında Rubinşteynin "Melodiya" və Ü.Hacıbəyovun "Axşam oldu" əsərlərini skripkada çox böyük məharətlə ifa edib.* |
| ***1948-1949*** | *Ü.Hacıbəyov təqaüdünə layiq görülüb.* |
| ***1948-1953*** | *ADK-da (indiki Bakı Musiqi Akademiyası) simli alətlər kafedrasının skripka sinfini əvvəl S.Britanitskinin, sonra isə A.Amitonun sinfində başa vurub.* |
| ***1953-1957*** | *ADK- da Q.Qarayevin sinfində bəstəkarlıq üzrə təhsil alıb.* |
| ***1957*** | *Bəstəkar skripka və simfonik orkestr üçün 1№-li konsertini bəstələyib və II Respublika festivalında I dərəcəli diploma layiq görülüb.* |
| ***1958*** | *Moskvada SSRİ Bəstəkarlar İttifaqında violençel və orkestr üçün bəstələnmiş I konserti ilk dəfə RSFSR-in əməkdar incəsənət xadimi , professor S.Knuşevitskinin ifasında səslənmişdir.*<br><br>*SSRİ Bəstəkarlar İttifaqına üzv seçilib.*<br><br>*SSRİ Musiqi Fonduna üzv seçilib.* |
| ***1961*** | *"Salamlayıcı" uvertyura Latviya respublikasının xalq artisti L.Viqnerin rəhbərliyi ilə ümumittifaq respublikasının radio və televiziyanın opera-simfonik opkestrinin ifasında səsləndirilib.* |

| | |
|---|---|
| ***1962*** | *RSFSR-in əməkdar incəsənət xadimi C.Dalqatın rəhbərliyi ilə ümumittifaq radio və televiziyanın böyük simfonik orkestrinin ifasında bəstəkarın II simfoniyası səsləndirilib.* |
| ***1964*** | *"Nizami" simfonik poemasını yazıb.* |
| ***1960- 1970- cı illərdə*** | *T. Bakıxanovun respublikada və respublikadan kənarda 60-a yaxın "müəllif gecəsi" adlı əsərlərindən ibarət konsert gecələri keçirilib.* |
| ***1968*** | *"Xəzər balladası" baleti ümumittifaq müsabiqədə II dərəcəli diploma layiq görülüb.* |
| ***1969*** | *Parisdə keçirilən VII beynəlxalq rəqs festivalı günlərində "Xəzər balladası" baleti yüksək səviyyədə ifa edilərək böyük müvəffəqiyyət qazanıb.* |
| ***1970*** | *Azərbaycan Teatr Cəmiyyətinə üzv seçilib.* |
| | *Moskva şəhərində Kreml sarayında "Xəzər balladası" baleti göstərilmişdir.* |
| ***1972*** | *Kiyev şəhərində Şevçenko adına opera və balet teatrında "Xəzər balladası" baleti göstərilmişdir.* |
| ***1973*** | *Azərbaycan SSR əməkdar incəsənət xadimi adına layiq görülüb.* |
| ***1976*** | *Tofiq Bakıxanov şair Sergey Yeseninin "Şərq poeması" adlı əsəri əsasında birpərdəli, üçeskizli balet, plastik illüziya.* |
| ***1978*** | *Leninqrad şəhərində opera və balet teatrında "Xəzər balladası" baleti göstərilmişdir.* |
| ***1970–1980*** | *UNESCO və digər beynəlxalq təşkilatların xətti ilə bir çox ölkələrdə Azərbaycan musiqisini təbliğ edib.* |
| ***1980-ci illər*** | *Muğam üslubları ilə simfonik musiqinin sintezini gücləndirir, bu sahədə yeni nümunələr yaradır.* |
| ***1983*** | *Professor adı almışdır.* |
| ***1990*** | *"Azərbaycan SSR xalq artisti" fəxri adı verilib.* |

| | |
|---|---|
| ***1990*** | *Tofiq Bakıxanovun Nizami Gəncəvinin "Xəmsə"si əsasında "Xeyir və Şər" birpərdəli, üçeskizli balet, rəqs dramasını yazmışdır.* |
| ***1996*** | *Azərbaycan Milli Yaradıcılıq Akademiyasının İncəsənət Doktoru seçilmişdir.* |
| ***1994–2000-ci illərdə*** | *Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatıdır.* |
| ***2000, 7 dekabr*** | *"Şöhrət" ordeni ilə təltif edilmişdir.* |
| ***2021, 26 yanvar*** | *"Şərəf" ordeni ilə təltif olunmuşdur.* |
| ***2025, 8 dekabr*** | *Azərbaycan Prezidenti İlham Əliyevin Sərən-camı ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.* |